# Koreya Kinosu Festivalının bağlanış mərasimi keçirildi

(Əvvəli 3-cü səhifədə).

Tədbirdə, həmçinin Xalq Artisti, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədova, Əməkdar İncənət Xadimi, kinorejissor Ayaz Salayev çıxış edərək, kino mədəniyyətinin inkişafı və təbliği üçün bu cür festivalların keçirilməsinin vacibliyindən danışıblar. Qeyd olunub ki, mədəni irsin və milli şüurun formalaşmasında, gənc nəslin inkişafında bu cür tədbirlər böyük əhəmiyyət kəsb edir.





Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk-İn çıxışında hər iki ölkənin milli mənəvi dəyərlərindən bəhs edib. O, son illər Azərbaycan və Koreya münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb, festival çərçivəsində nümayiş olunan filmlərin Azərbaycan tamaşaçısında Koreya barədə daha dolğun təsəvvür yaratdığına inandığını diqqətə çatdırıb.

Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov “Azərbaycanda Koreya Kinosu Festivalı”nı parlaq mədəniyyət hadisəsi kimi dəyərləndirib. O deyib ki, bu festivalda nümayiş etdirilən bir-birindən maraqlı filmlər Azərbaycan tamaşaçısına Koreya xalqının tarixi, mədəniyyəti, adət-ənənələri ilə tanışlıq imkanı qazandırıb. Bu baxımdan azərbaycanlıların Koreya xalqının mədəniyyətinə, adət-ənənələrinə hörmət və məhəbbət hissi ilə yanaşmasında “Azərbaycanda Koreya Kinosu Festivalı”nın mühüm rolu var.

Çıxışlardan sonra tamaşaçılara festival çərçivəsində 5 regionun hər birində 10 filmin təqdimatı və tədbirlərin gedişatı ilə bağlı sənədli film təqdim olunub.

Sonra koreyalı rejissor Lee Hyun-jong-un 2013-cü ildə ərsəyə gətirdiyi “Məni həbs et” (Steal My Heart”) filmi nümayiş etdirilib.

Festivalın sonunda tədbir iştirakçılarına təşkilatçılar tərəfindən müxtəlif hədiyyələr, eyni zamanda, Koreya Fondu tərəfindən Koreyanın mədəniyyətini və tarixini özündə əks etdirən videodisklər təqdim olunub.

Qeyd edək ki, festivalın bağlanış mərasimində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, Azərbaycanın məşhur kinorejissorları İlqar Nəcəf, Asif Rüstəmov və digər qonaqlar iştirak ediblər.

**Qüdrət SƏMƏDOV.**
***Fotolar İlkin Vəlizadənindir.***

# Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun Final Yarışları başa çatmışdır





Son bir ayda Qəbələ ikinci belə mötəbər tədbirə ev sahibliyi edir. Bu doğma Azərbaycanımızın, o cümlədən Qəbələmizin sürətli inkişafının, dünyada artmaqda olan nüfuzunun təzahürüdir.

Xəbər verdiyimiz kimi iyul ayının 25-dən 31-dək Qəbələ Beynəlxalq Musiqi Festivalına ev sahibliyi etmişdi. Bu tədbirdən cəmi bir həftə keçmiş Qəbələdə yenidən daha bir mötəbər beynəlxalq tədbirin—Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun Final Yarışlarının açılış mərasimi keçirilldi. Bu yarışlara dünyanın 100-ə qədər ölkəsindən 2000 nəfər idmançı qatılmışdı. Yarışların ilkin mərhələləri Meksikanın Akapulko, Birləşmiş Ərəb Əmirliklərinin Əl-Əyn, Cənubi Koreyanın Canqkon, Kiprin Larnaka, ABŞ-ın Fort-Benning, Almaniyanın Münhen şəhərlərində keçirilmişdir. Bu çoxmərhələli yarışın 7-ci turniri və final mərhələsinə isə 10-gün müddətində Qəbələ ev sahibliyi etdi.

Yarışlara həqiqətən də maraq olduqca böyük idi. Bunu nəzərə alan Beynəlxalq Atıcılıq Federasiyası yarışların gedişatını İSSF-nin rəsmi kanalı ilə canlı yayımını təşkil etmişdir. Eyni zamanda yarışların gedişini işıqlandırmaq üçün tədbirə dünyanın aparıcı telekanallarının, mətbuat agentliklərinin, müxtəlif qəzet və jurnallarının 1000 nəfərdən artıq jurnalisti qatılmışdır.

Bu mötəbər beynəlxalq tədbir Qəbələ Atıcılıq Klubunun təşkilatçılığı və Azərbaycan Gənclər və İdman Nazirliyinin, Azəbaycan Atıcılıq Federasiyasının dəstəyi ilə keçirilmişdir. Qeyd edək ki, yarışlar Beynəlxalq Atıcılıq Federasiyasının illik təqvim planına daxil olan ən yüksək yarışlardan biri sayılır. Çünki 2016-cı ildə Brazilyanın Rio-de Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarında iştirak hüququ verən 34 lisenziya öz sahibini Qəbələdə tapdı. Belə demək olar ki, həmin yüksək tədbirə gedən yol həm də Qəbələdən keçdi. Daha bir məsələni unutmaq olmaz ki, turnirin rəsmi tərəfdaşları «Gilan Holdinq», «Giltex», «Jalə», «Milla», LG, «Aztexnika», «Aztikintiyol», «Azfinanceinvest», «Doğtas» və «Beretta» kimi şirkətlər idi.

Dünya kuboku ilə bağlı fikirlərini bildirən Qəbələ Atıcılıq Klubunun vitse-prezidenti Elvin İsmayılov turnirin əhəmiyyəti haqqında demişdir: «Dünya Kuboku üzrə bu yarışlar I Avropa Oyunlarından sonra Azərbaycanda keçirilən ən böyük idman tədbiridir. Yarışın Dünya Kubokunun Olimpiya növləri üzrə yarış olması artıq onun əhəmiyyətini yüksəldir və təsdiq edir. Əlamətdarlığı isə ondan ibarətdir ki, belə böyük mötəbər tədbir paytaxtdan kənarda keçirilir. Bu fakt Azrbaycanın güclü idman ölkəsi olduğunu göstərir. Yəni təkcə paytaxtda deyil, bölgələrimizdə də yaradılan infrastruktur və şərait dünya çaplı yarışlar keçirməyə imkan verir».

Bəli, bu ifadələr yarışların keçirildiyi 10 gün ərzində öz təsdiqini tapmışdır. Atıçılığın 17 növü üzrə yarışların keçirilməsi, dünya səviyyəsində yayımı, nəticələrin hesablanması yüksək səviyydə təşkil olunmuşdur. Avqustun 15-də kişilər arasında stend atıcılığı üzrə keçirilən sonuncu günün final yarışlarında 8 idmançı iştirak edib. Yarışda Rusiyalı Aleksey Alipov qızıl medal, Xorvatıyalı Çernopraz Çivanni ikinci yeri, italiyalı Fraska Erminio isə üçüncü yeri qazanmışlar. Sonda 1, II və III yerləri tutan idmançılar mükafatlandırılmışdır.

Qeyd edək ki, ayrıca olaraq hər növ final yarışların qaliblərinin mükafatlandırılmasında rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev iştirak etmiş, qaliblərlə xatirə şəkli çəkdirilmişdir.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar İ. Vəlizadənindir.**